ASSOCIATION OF PROFESSIONAL FINANCIAL MANAGERS

**Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası**

AZ1052 BAKU, AZERBAIJAN
119 "C" Y.V.Cahamanzaminli STR.
Afen Plaza, 3rd floor, (994 12) 564 22 37/57

11.03.2021 Ref № 190/03-21

Azərbaycan Respublikasının
Auditorlar Palatasının sədri
Cənab Vahid Novruzova

## *Auditorlar Palatasının 25 illiyi münasibətilə təbrik məktubu*

Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası 2007-ci ildən fəaliyyət göstərir. Təşkil olunduğu vaxtdan etibarən Auditorlar Palatası ilə sıx əməkdaşlıq edərək bir çox yerli və beynəlxalq konfransların birgə təşkilatçısı olmuşdur. Peşəkar mühasib təşkilatı olaraq APFM üçün üzvlərilə işin təşkili və mühasib peşəsinin inkişafı istiqamətdə Auditorlar Palatası ilə sıx əməkdaşlıq və birgə tədbirlərin həyata keçirilməsi daim faydalı olmuşdur. Təsadüfü deyildir ki, Auditorlar Palatasının təqdim etdiyi metodiki vəsaitlər üzvlərimizin maraqla istifadə etdiyi stolüstü kitaba çevrilmişdir.

Qloballaşan dünyada uğurlu daxili və xarici siyasətilə tanınan Azərbaycanda auditor xidmətinin təşkili və tətbiqinin genişləndirilməsi müstəqil dövlətin iqtisadi inkişafına layiqli töhfələr vermişdir. Ötən dövrün təhlili göstərir ki, Auditorlar Palatası fəaliyyətinin 25 ili ərzində auditin təbliği və yayılması istiqamətində bir çox işlər görmüşdür. Auditorlar Palatası tarix üçün kiçik olan bu dövr ərzində Respublikada auditor xidmətinin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən və auditorların müstəqilliyinin artırılmasına öz töhfəsini verən bir sıra yeni nəşrlərin və elmi-metodiki vasaitlərin çapına nail olmuşdur. Hazırda ölkəmizdə ictimai nəzarətin, o cümlədən müstəqil auditin rolunun getdikcə artığı bir vaxtda - iqtisadi islahatların indiki daha məsuliyyətli bir mərhələsində audit xidmətinin keyfiyyətinin artırılması, beynəlxalq aləmə inteqrasiyasını təmin etmək zamanın tələbidir. Bundan sonra da ölkənin uğurlu inkişafında fəal rolunuz, yeni planların və layihələrin həyata keçirilməsnə göstərdiyiniz diqqət və qayğınızla daha böyük nailiyyətlərə nail ola biləcəyinizə əminik.

Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının kollektivi, çoxsaylı üzvləri adından Auditorlar Palatasını 25 illik yubileyi münasibətilə başda palatanın sədri, dərin hörmət və ehtiram bəslədiyimiz Vahid müəllim olmaqla bütün kollektivi, palata üzvlərini, auditorları ürəkdən təbrik edir, möhkəm can sağlığı , xoşbəxtlik, firavanlıq və müvəffəqiyyətlər arzu edirik.

Təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da tanınan Azərbaycan Respublikasının Autitorlar Palatasının fəxri üzvü olduğum üçün qürur duyuram. Sizinlə möhkəm əməkdaşlığımızın bundan sonra da uğurla davam etdilməsini arzu edirəm.

Nuriyyə Novruzova
APFM İdarə Heyətinin sədri